**Tarix və onun problemləri, № 3 2013**

**RƏHIM QURBANOV**
***Azərbaycan DövlətMədəniyyət və İncəsənət Universitetinin***
***"Sosial – Siyasi elmlər" kafedrası, tarix üzrə fəlsəfə doktoru***
**E-mail:TarixVeOnunProblemleri@gmail.com**

# AZƏRBAYCAN TARIXŞÜNASLIĞI MÜASIR DÖVRDƏ

*Açar sözlər:* Demokratiya, Elmlər Akademiyası, Bakı Dövlət Universiteti, Ziya Bünyadov, Tarixşünaslıq, Qarabağ
*Ключевые слова:* Демократия, Акдемия наук, Бакинский Государственный Университитет, Зия Бунятов, Историяведение, Карабах
*Keywords:* Demokracy, Azerbaycan national Academi of Sciences, Baku State University, Ziya Bünyadov, Historiography, Karabaqh

XX əsrin 80-ci illərin ikinci yarısında sovet cəmiyyətində baş vermiş dəyişikliklər Azərbaycan tarixşünaslığına da öz təsirini göstərmişdir. Demokratiya və aşkarlıq şəraitində tarixi tədqiqatların aktuallığı artır. Azərbaycan tarixşünaslığında sovet hakimiyyəti illərində qadağa qoyulmuş mövzuların tədqiqinə başlanıldı.

Azərbaycanın qədim və orta əsrlər tarixinə aid yeni tədqiqatlar meydana çıxır. Azərbaycan xalqının etnogenezi məsələsi və bu sahədə diskussiyalar genişləndi. Xalqımızın orta əsrlər tarixinə aid yeni tədqiqatlar meydana çıxır. Bu sahədə akademik Ziya Bünyadovun "Azərbaycan VII-IX əsrlərdə" adlı monoqrafiyası daha aktualdır. Bu monoqrafiya Azərbaycan tarixşünaslığı üçün böyük bir töhfə idi. Kitab ilk dəfə 1965-ci ildə rus dilində Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı tərəfindən çap olunmuşdur. Azərbaycan dilində olan mətn 1970-ci ildə nəşr olunmalı idi.Lakin naməlum səbəblər üzündən bu alınmır. Nəhayət 1989-ci ildə "Azərbaycan VII-IX əsrlərdə" kitabı Azərbaycan dilində nəşr olunur. Kitabda Azərbaycanın ərəblər tərəfindən istila edilməsi dövrü ilk dəfə tədqiq olunur.Onun siyasi və sosial-iqtisadi vəziyyəti, yerli hakimiyyətin Ərəb xilafətinə münasibəti, istilaçılara qarşı xalqın azadlıq mübarizəsi nəzərdən keçirilir. İnzibati bölgü, vergi sistemi, kənd təsərrüfatının inkişafı və s. haqqında məlumat verilir. Ərəb işğalçıları ilə mübarizə aparmış Babək və onun silahdaşları haqqında ərəb mənbələrindən götürülmüş materiallar kitabda böyük maraq doğurur.

XX əsrin əvvəllərində milli-azadlıq hərəkatı tarixi,inqilabi-demokratik hərəkatdan bəhs edən tarixi mövzuda əsərlər meydana çıxır. Azərbaycan tarixşünaslığını bəzəyən, Cənubi Azərbaycanda inqilabi, sosial-demokrat hərəkatını özündə əks etdirən müəllifi Nəriman Həsənov olan və 1986-cı ildə çapdan çıxmış "Oyanmış Təbriz və Səttarxan"monoqrafiyasıdır. Kitabda Azərbaycan xalqının qəhrəman oğlu, İran inqilabının rəhbərlərindən biri Sərdare milli Səttarxanbaşda olmaqla Cənubi Azərbaycanda 1905-1911-ci illərdəki inqilabi-demokratik hərəkatdan, əncumanların, silahlı mücahid-fədai dəstələrinin, sosial-demokrat təşkilatlarının yaranması və onların fəaliyyətindən, 1907-1909-cu illərdə Təbrizdə silahlı üsyandan, Səttarxan başda olmaqla Cənubi Azərbaycanda inqilabi hökumətinyaranmasından, onun həyata keçirdiyi sosial-iqtisadi və inzibati tədbirlərdən, 1905-1911-ci illər İran inqilabı dövründə Azərbaycanın və azərbaycanlıların çox mühüm aparıcı mütərəqqi rolundan danışılır.

1980-ci illərin sonu 1990-cı illərdən başlayaraq Azərbaycan Xalq Cümhuriyyəti tarixinin saxtalaşdırılmasına qarşı yeni-yeni tədqiqatlar, araşdırmalar aparılır. Sovet dövründə nəşr olunmamış, mühacirətdə yazılmış və nəşr olunmuş AXC tarixşünaslığına aid əsərlər çap

edilir və həmin dövrün tarixinə aid əsərlər meydana çıxır. Belə tarixi mövzuda yazılmış, tarixşünaslıqda mühüm yer tutan əsərlərin müəlliflərinə misal olraq Nəsib Nəsibzadə, Bəxtiyar Nəcəfov, Nasiman Yaqublu, Cəmil Həsənov, Ziya Bünyadov, Aydın Balayev, Arif Mansurov və başqalarını göstərə bilərik.

XX əsrin 80-ci illərin ikinci yarısı 1990-cı illərin əvvəllərində Azərbaycanda milli-azdlıq hərəkatının gücləndiyi bir dövrdə rus imperialistlərinə arxalanan erməni millətciləri Azərbayacana qarşı torpaq iddiaları ilə çıxış edərək Qarabağ məsələsini ortaya atdılar. Bu mənada sovet dövrü illərində uzun müddət nəşr olunmayan Qarabağla əlaqədarhələ XIX əsrdə yazılmış əsərlər, qeydlər, araşdırmalar və digər sənədlər yenidən nəşr edilərək Qarabağ həqiqətləri xalqa çatdırılır. 1989-cu ildə tarixçi Nazim Axudovun "Qarabağ salnamələri" adlı kitabı nəşr olunur. Bu Azərbaycan tarixşünaslığında Qarabağ tarixinin öyrənilməsində mühüm rol oynadı. XIX əsrdə XX əsrin əvvəllərində ümumən Qarabağ, xüsusən Qarabağ xanlığı haqqında Mirzə Adıgözəlbəy, Mirzə Camal, Mir Mehdi Xəzani, Mirzə Yusif Qarabaği, Əhmədbəy Cavanşir və b. Müəlliflər salnamələr əsasında Qarabağın keçmişinə dair əsərlər yaratmışlar. Nazim Axundov öz kitabında- xüsusi bir bölmədə Qarabağ xanlarının iqtisadi, ictimai və mədəni həyatından bəhs etmişdir.

1989-cu ildə tarixçilər Akif Fərzəliyev və Nazim Axundovun müəllifi olduqları "Qarabağnamələr" adlı kitabın birinci cildi, 1991-ci ildə isə həmin kitabın ikinci cildi "Yazıçı" nəşriyyatı tərəfindən nəşr olunur. Hər iki cildə XIX-XX əsrlərdə müxtəlif müəlliflər tərəfindən qələmə alınmış Qarabağ tarixinə aid tarixi əsər, məqalə və araşdırmalar toplanıb nəşr olunmuşdur.

1989-cu ildə Süleyman Əlyarlı və Yaqub Mahmudovun müəllifliyi ilə "Azərbaycan tarixi üzrə qaynaqlar" adlı kitab nəşr olunmuşdur. Kitab ən qədim zamanlardan XIX əsrin 70-ci illərinə qədərki dövrü əhatə edən çox mühüm sənədlər və təsviri yönümlü mətnlərdən seçmələr daxil edilmişdir. Bakı Dövlət Universitetinin Azərbaycan tarixi kafedrası tərəfindən hazırlanmış bu kitab tarixşünaslıq baxımından yazılmış ilkin dolğun əsərlərdən biridir. Həmçinin bu kitab respublika ali məktəblərində tarixçi kadrların hazırlanması sahəsində qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi sahəsində atılmış ilk addımlardan biridir. Tarixşünaslıqla əlaqədar kitabda verilmiş qaynaqlar Quldarlıq və IV – XVIII əsrləri əhatə edən feodalizm quruluşu tarixini, nəhayət Azərbaycanın Rusiya tərəfindən işğalından sonra feodalizmin tənəzzül etdiyi və kapitalist münasibətlərin yarandığı dövrü əhatə edir. Kitab ABU nəşriyyati tərəfindən buraxılmışdır.

1990-ci illərin əvvələrində Azərbaycan tarixçiləri tarixşünaslıq sahəsində bir sıra açılmamış qaranlıq sahifələri açaraq xalqa çatdırırlar. Onlar tarixi faktlara əsaslanan rus çarizmi tərəfindən Azərbaycanın işğalına dairyeni-yeni kitablar nəşr edirlər. Belə kitablardan biri tarixçilər Firudin Əsədov və Sevil Kərimova tərəfindən qələmə alınmış "Çarizmi Azərbaycana gətirənlər" adlı kitabdır. Tarixşünaslıq baxımından çox gərəkli olan bu kitab 1993-cü ildə "Gənclik" nəşriyyatı tərəfindən buraxılmışdır. Kitabda Azərbaycanda müstəmləkəçilik siyasətinin həyata keçirilməsində xüsusi rol oynamış ayrı-ayrı rus və erməni zabitlərinin fəaliyyəti haqqında məqalələr toplanmışdır. Müəlliflər, çarizmi Azərbaycana gətirən bu zabitlərin simasında Qafqazın, o cümlədən Azərbaycanın ruslar tərəfindən işğal olunmasını tarixi faktlar əsasında işıqlandırmışlar. Çarizmi Azərbaycana gətirənlər arasında erməni millətindən olan şəxslər xüsusi rol oynamışlar. Müəlliflər həmin kitabda çarizmə xidmət edən və öz məkrli siyasətlərini həyata keçirməyə çalışan erməni zabitlərinin, keşişlərinin əsl simalarını oxuculara olduğu kimi açıb göstərməyi hələ keçən əsrdən başlayaraq

xalqımızın torpağına göz dikən xain millətin öz məqsədləri uğrunda necə mübarizə apardığını tarixi faktlar əsasıda işıqlandırmağı öz qarşılarına başlıca məqsəd qoymuşlar.

1993-cü ildə "Azərnəşr" tərəfindən müəllifi akademik Z.Bünyadovun olduğu "Qırmızı terror" adlı kitabı çap edilir. Bu kitab XX əsrin 30-cu illərinin repressiyaların qurbanlarına həsr olunmuşdur. Kitab XX əsr 30-cu illərin tarixşünaslığına həsr olunmuş sanballı əsərlərdən biridir. Görkəmli tarxçi-alim, Sovet İttifaqı Qəhrəmanı Z.Bunyadov tərəfindən kitabda Y.V.Çəmənzəminli, B.Çobanzadə, A.Şərifzadə, Hənəfi Zeynallı, Məmməd Cuvarlinski, T.Şahbazi və b. yaradıcı ziyalıların saxta dəlillər əsasında məhkum olduğu inandırıcı sürətdə açılıb göstərilir.

1992-ci ildə görkəmli tarixçi Cahangir Zeynaloğlu tərəfindən yazılmış, 1924-cü ildə İstanbulda nəşr olunmuş "Müxtəsər Azərbaycan tatixi" adlı kitab çapdan çıxır. 68-ci ildən sonra Azərbaycan dilində nəşr olunmuş bu kitabtarixşünaslığımız üçün bir töhfə idi. Kitabda Azərbaycanın ta qədimdən 1920-ci ilə qədər olan tarixi əsk olunmuşdur. İstanbulda mühacirətdə olan müəllif Cahangir Zeynaloğlu 1920-ci illərdə yazırdı: "...tariximizi bilmək, şanlı keçmişimizi öyrənməkvə istiqbal üçün də hazırlanmaq özümüzə bir borcdur. Biz azəri milləti kimsəyə təcavüz niyyəti bəsləmirik, gözəl cümhuriyyətimizin istiqbalını və milli varlığımızı mühafizədən başqa bir amalımız yoxdur, yegane məqsədimiz budur. Bunun üçün çalışmaq, qüvvətli olmaq və bu sürətlə Avropa siyasi təşkilatlarına daxil olaraq Avropa ideyalarını qazanmaq biz azərilərə bir vəzifə olmalıdır.Əks təqdirdə, istiqlaliyyətimiz qeyb və qoca bir millət məhvə məhkum olur. Bax bunu hər türk bilməli və anlamalıdır."

1993-cü ildə "Azərbaycan" nəşriyyatı tərəfindən Məmmədhəsən Vəliyev(Baharlı) in müəllifi olduğu "Azərbaycan" (Fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk) kitabı nəşr olunur. Bu kitab (rus dilində) 1921-ci ildə Bakıda nəşr olunmuşdur. Bu qiymətli əsər illər boyu arxivlərdə istifadəsiz qalmış, onunla heç kəs maraqlanmamışdır. Tarixşünaslıq baxımından qiymətli olan bu kitabda Azərbaycanın tarixi,etnoqrafiyası, təbiəti və iqtisadiyyatı haqqında məlumat verilir. Eyni zamanda torpaq mülkiyyətindən və kənd təəsrrüfatı sahələrindən, torpağımızın yeraltı, yerüstü təbii sərvətlərindən geniş bəhs olunur.

1993-cü ildə "Azərnəşr" tərəfindən tanınmış tarixçı-alim Fəridə Məmmədovanın "Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası" monoqrafiyası çap edilir. Bu kitab Azərbaycan tarixşünaslığında 1990-cı illərdə yazılmış ən sanballı əsərlərdən biridir. Təqdim olunan əsərin əsas məqsədi e.ə. III əsrdən başlamış eramızın VIII yüzilliyinədək böyük bir dövrdə Albaniyanın atrixi və mədəniyyəti ilə bağlı problemləri öyrənib tədqiq etməkdir. Bunlar tarixi coğrafiya, siyasi quruluş, siyasi tarix, ideologiya, mədəniyyət problemləridir. Monoqrafiyanın məqsədi alban dövlətinin meydana gəlməsi və inkişafının mühüm anlarını bərpa etmək, onun hansı əsrə qədər yaşadığını müəyyənləşdirmək, qabaqcıl ictimai quruluşa- yəni erkən formalaşmış feodal münasibətlərə malik olan bu dövlətin süqutunu və alban etnosunun yer üzündən yox olmasının səbəblərini aşkara çıxarmaqdır.

1992-ci ildə "Azərnəşr" Hüsyn Baykaranın "Azərbaycan isitqlal mübarizəsi tarixi" kitabını nəşr edir. AXCnin süqutundan sonra Türkiyəyə mühacirət etmiş Hüseyn Baykara Azərbaycanın istiqlal tarixində mühüm rol oynamışdır. Müstəqil milli Azərbaycan dölətindən bəhs edən bu kitab ilk dəfə 1975-ci ildə İstanbulda Türk dilində nəşr olunmuşdur. Əsərdə Azərbaycanın Rusiya tərəfindən işğalı, yeni yaranan dövlətin başına gələn müsibətlər, Sovet hökumətinin "alman casusu" olduğu S.Şamuyanın nə üçün Bakıya gəldiyi erməni və bolşeviklərin törətdikləri qırğın, türklərin hərbi yardımı və s. bizə məlum olmayan sənədlər öz əksini tapmışdır. Kitabda həmçinin Azərbaycan mühacirətində olan ziyalılar haqqında da geniş məlumat vermişdir.

1992-ci ildə hələ 1936-cı ildə Türkiyədə ərsəyə gəlmiş, müəllifi Azərbaycan istiqlal hərəkatının görkəmli xadimləlrindən biri olmuş Mirzə Bala Məmmədzadənin "Mili Azərbaycan hərəkatı" adlı kitabı Bakı "Nicat" nəşriyyatında nəşr olunur. Kitabda 1911-ci ildə yaradılmış Azərbaycan milli istiqlalının önündə gedən "Müsavat"partiyasının Rusiyada olmuş fevral inqilabından sonra 1917-ci ildə Gəncədə təşkil olunan "Türk-Əcəmi Mərkəziyyət Partiyası" həmin ilin aprelində "Müsavat" partiyasına birləşdikdən sonra güclənən milli-azadlıq hərəkatından və bu hərəkatın nəticəsi olan AXCnin yaranması, onun fəaliyyəti, sonrakı acı taleyi, mühacir Azərbaycan ziyalılarının Türkiyə və dünyanın bir çox ölkələrində milli-azadlıq ideyelarını davam etdirməsi və s. haqqında bəhs olunur.

1990-cı illərin əvvəllərində milli-azadlıq hərəkatının genişləndiyi bir dövrdə Azərbaycan istiqlaliyyat mübarizəsində mühüm yer tutan Azərbaycan Xalq Cümhuriyyətinin keçdiyi tarixi yoldan bəhs edən mühacir ziyalıların əsərləri nəşr olunmağa başlayır. Belə əsərlərdən biri də Məmməd Əmin Rəsulzadə tərəfindən yazılmış "Azərbaycan Cümhuriyyəti" adlı kitabıdır. Azərbaycan xalqına təqdim olunan bu kitabda tariximizin ağ səhifələri- 1918 -1920 ci illər dövrün ictimai- siyasi hadisələrin fonunda işıqlandırılmış, Azərbaycan xalqının AXC-dən əvvəlki və sonrakı taleyi, güzəranı yığcam şəkildə əks etdirilmişdir. Təsadüfi deyildir ki, 1923-cü ildə Türkiyənin İzmir şəhərində keçirilən "Kitab bayramı"nda yenicə təşkil olunmuş "Azərbaycan Cümhuriyyəti" Atatürk mükafatına layiq görülmüşdür. Kitabın ayrı-ayrı fəsilləri və ya konkret məsələlərə münasibət işıqlandırılmışdır. Sovetlər dövrünün 70 ili ərzində kitabın müəllifi Məmməd Əmin Rəsulzadənin taleyi və onun "Azərbaycan Cümhuriyyəti" adlı əsəri Azərbaycan xalqında və onun keçmiş istiqlal tarixi haqqında xoş əhval yaradır.

## Ədəbiyyat:

1. Bakıxanov A. "Gülüstani-irəm", Bakı, 2001
2. Azərbaycan tarixi, Bakı 1996
3. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989
4. İsgəndərov A. 1918-ci ilin mart qırğınının tarixşünaslığı. Bakı, 1997
5. Mustafazadə T. Qarabağ xanlığı. Bakı, 2010
6. Muxtarova Ə. Türk xalqları tarixi. Bakı, 2007
7. Əfəndiyev O. Azərabycan Səfəvilər dövləti. Bakı, 1993

**РАХИМ КУРБАНОВ**
***Азербайджанский Государственный***
***Университитет Культуры и Исскуства***

## АЗЕРБАЙДЖАНСКАЯ ИСТОРИОГРАФИЯ СОВРЕМЕННОЙ ЭПОХИ

Перемены происходившие в ССР в 80-х годах XX века в свою очере повлияли на Азербайджанскую историографию. В начале 1990-х годах Азербайджанские историографы открыли народу ещё неизвестные им страницы. В 1993 году под редакцией «Азернэшр» была опубликована книга З.Бунъятова под названием «Красный террор». Эта книга одно из самых увесистых книг посвящённых историографию 30-х годов XX века.

В 1993 году под предводительством учёного историографа Фариды Мамедовой была опубликована монография «Политическая и географическая история Азербай-

джана». Эта книга была самой лучшей историографической книгой написанной 1990-ых годах.

Под редакцией «Азернэшр» в 90-ых годах XX века была опубликована книга Гусейна Байкары под названием «Борьба за независимость Азербайджана» в которой обсуждается Национальная независимость Азербайджана. Впервые эта книга была опубликована на тюркском языке 1975 году в Стамбуле.

**RAHIM KHORBANOV**
***Azerbaycan StateUniversity of Cultureand arts***

## AZERBAIJAN HISTORIOGRAPHY OF MODERN AGE

Changes happening in 80th years of the XX century in the Soviet Union are affected the Azerbaijan historiography. At the beginning of 1990th years Azerbaijan historians discovered still unknowns pages for people. In 1993 edited by "Azerneshr" was published the book written by Z.Bunyadov "Red Terror". This book one of the heaviest book devoted to the historiography of 30th years XX century.

In 1993 year under the leadership by academic historian Farida Mammedova, was published monography which called "Political and geographic history of Azerbaijan". This book was the best book devoted to the historiography of 1990th years.

In 90th years of XX century "Azerneshr" published the book written by Huseyn Baykara called "The struggle for the independence of Azerbaijan". For the first time this book was published Into Turkish language in Istanbul in 1975.

***Rəyçilər: f.e.d. Ə.Tağıyev, t.e.d.A.C.İsgəndərov***
***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Sosial - Siyasi elmlər" kafedrasının 18 sentyabr 2013-cü il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (pr. №01).***